Azərbaycan, № 271.- S.21.
12 dekabr 2023-cü il

# Gürcüstan Parlamentinin sədri Azərbaycana rəsmi səfərə gəlib




Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili dekabrın 10-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında ali qonağı Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev, hər iki ölkənin səfirləri Faiq Quliyev, Zurab Pataradze və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***